## ***DAHİLƏR DAHİSİ***

Dahilər dahisi bu böyük insan,
Əxz etdi siyasət fəlsəfəsini.
Uzaq ölkələrə getdiyi zaman,
Verdi soydaşlara məsləhətini.

Memar qüdrətilə qurub-yaratdı,
Nura qərq eylədi Odlar Yurdunu.
Vətən sevgisindən ilhama gəlib,
Cənnətə döndərdi Azərbaycanı.

Cahana tapşırdı əziz İlhamı,
Allaha oğlunu əmanət etdi.
Xalqında yaratdı böyük inamı,
Vətəni sevməyi nəsihət etdi.

Dəyişsə fəsillər, ötsə də illər,
Tarix yaşadacaq Dahi Rəhbəri.
Dünyaya gəlsə də neçə nəsillər,
Əziz tutacaqlar Dədə Heydəri.

Rəhbər səmadakı Aydır, Günəşdir
Xalqın qüdrətidir onun rəhbəri.
Dahilik özü də Haqqın işidir,
Allah yaratmışdı Dədə Heydəri.

"Günəşin oğlu"ydu, qalxdı göylərə
Heyrətə gətirdi bütün bəşəri.
Günəş övladı da nur verər Yerə,
Tanrı da bəxş etdi nəvə Heydəri.

***İradə Vəlibəyli***

***Savalan. – 2008. – 16 may.***